2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2020-ci il tarixli, 33 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri                    21 yanvar 2020-ci il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qəhrəman Elgiz Camal oğlunun 2020-ci il yanvarın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 16 yanvar 2020-ci il tarixli 10/44 saylı qərarının ləğv edilməsi və müvafiq qərar qəbul edilməsi yolu ilə namizədliyinin qeydə alınmasını ilə bağlı 19 yanvar 2020-ci il tarixli 33 saylı müraciətini araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Namizəd E.C.Qəhrəman müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə olunmuş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, lakin mülkiyyət hüququ əsasında həyətyanı torpaq sahəsinin ona məxsus olmasını bilmədiyinə görə bu barədə dairə seçki komissiyasına məlumat verməmiş və nəticədə komissiya onu namizəd kimi qeydə almaqdan imtina etmişdir.

Araşdırma zamanı namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş E.C.Qəhrəmanın namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını mülkiyyət hüququ əsasında namizədə məxsus paylı mülkiyyətdə olan daşınmaz əmlakın göstərilməməsi ilə əsaslandırmışdır.

Araşdırma ilə əlaqədar namizəd E.C.Qəhrəman tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna verilmişdir. İşçi qrupunun 20 yanvar 2020-ci il tarixli rəyində göstərilir ki, namizəd E.C.Qəhrəmanın əmlakı barədə təqdim etdiyi məlumatda göstərilməyən, lakin ümumi birgə mülkiyyət hüququ əsasında ona məxsus dövlət qeydiyyatına alınmış həyətyanı torpaq sahəsi aşkar olunmuşdur.

Namizəd E.C.Qəhrəmanın daşınmaz əmlakı barədə dairə seçki komissiyasına düzgün məlumat verməməsi Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina üçün hüquqi əsas yaratmışdır.

Göstərilənlərə əsasən şikayət təmin edilməməli, E.C.Qəhrəmanın namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 16 yanvar 2020-ci il tarixli 10/44 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qəhrəman Elgiz Camal oğlunun 19 yanvar 2020-ci il tarixli 33 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 16 yanvar 2020-ci il tarixli 10/44 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov